

*Asim Yadigar*

## NƏFƏS

*Dünyanın nəfəsi təngiyir yaman,*
*Dünyaya təzə bir nəfəs ver, Allah.*
*Yerdən də, göydən də üzülüb əllər,*
*Bizə yaşamağa həvəs ver, Allah.*

*Çirkaba bürüdük dünyanı tamam,*
*Məzlumun ahını ucaltdıq göyə.*
*Soxdun barmağını gözlərimizə*
*"Hələ ölməmişəm, mən varam"- deyə.*

*Yerin allahları əsir, titrəyir,*
*Qorxu bürüyübdü canını daha.*
*Allah tanımayan allahsızların*
*Əlləri uzanıb bu gün Allaha.*

*Hara qaçacaqlar bu yer üzündən,*
*Bir səma altından qaçmaq olurmu?*
*Ümmanlar qabarır, dağlar aşınır,*
*Özgə bir dünyanı qucmaq olurmu?*

*Tanrım, bu nə bəla, bu necə dərddir,*
*Sınağa çəkirsən Yer kürəsini.*
*Yerin allahları qorxu içində*
*Necə batırıblar bir göz səsini.*

*Bu da bir sınaqdı, bir imtahandı,*
*Kim necə çıxacaq sınaqdan, Allah*
*Kimlər bu sınaqdan üzüağ çıxıb,*
*Kimlər öləcəkdi qınaqdan, Allah.*

*Bir gözə görünməz virus əlində*
*Əsir- yesir olub bu qoca dünya,*
*Hələ də çoxları inanmayır ki,*
*Bu bir həqiqətdi, yoxsa ki röya.*

*Dünyanın nəfəsi təngiyir yaman,*
*Dünyaya təzə bir nəfəs ver, Allah.*
*Yerdən də, göydən də üzülüb əllər,*
*Bizə yaşamağa həvəs ver, Allah.*

## Tanrım həkimlərin köməyi olsun

*"Evdə qal"- deyirlər, evdəyəm, evdə,*
*Ürəyim yığışmır evə neyləyim.*
*Dilimin ucunda dua səslənir,*
*Onu kimə deyim, kimə söyləyim:*
*-Tanrım həkimlərin kömәgi olsun!*
*Həkim el anası,-dərdə yanandı,*
*Yanır od içində Səməndər kimi.*
*Mən təkcə özümü düşünmürəm ki,*
*Halına yanıram min-min həkimin-*
*Tanrım həkimlərin köməyi olsun!*

*Bizim həyatımız ona bağlıdır,*
*Ağrımın, acımın məlhəmi odur.*
*Bu gün yer üzündə milyon insanın*
*Ən yaxın sirdaşı, mərhəmi odur-*
*Tanrım həkimlərin köməyi olsun!*

## TÜRKÜN GÜCÜ

*"Mən desəm ki, almanlar ağıllı millətdir, verin dünyanı almanlar idarə etsin, milliyətcə alman olduğum üçün məni qınayarlar, odur ki, deyirəm: "Dünyanı verin türklər idarə etsin, çünki türklər ən ədalətli və insaflı millətdir".*

*HEGEL*
*Alman filosofu*

*Haqq, ədalət pozulur*
*dünyanın hər yerində,*
*Belə getsə qopacaq*
*dünya öz mehvərindən...*
*Zamanın ağrıları*
*gah üzdə, gah dərində,*
*Bu dərdlərin əlacı*
*türk oğlu türkdə ancaq,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Çalın-çarpaz dağ çəkib*
*dünyanın sinəsinə,*
*Zalımlar axıdırlar*
*su yerinə qan yenə,*
*Çoxu deyir: dünyanın*
*dərdi qalmayıb mənə.*
*Dünyanın dərdi, qəmi*
*hələ də qucaq-qucaq,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Haqq, ədalət deyirik! -*
*ədalət türkdə olur,*
*Hünər, qeyrət, cəsarət,*
*dəyanət türkdə olur,*
*İnsanlığa mərhəmət,*
*məhəbbət türkdə olur,*
*Əbədidir, sönməzdir*
*türkün çatdığı ocaq,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Min illərdir ucalır*
*dünyada türkün səsi,*
*Gündoğanla günbatan*
*türk yurdu, düşərgəsi,*
*Hər eldə, hər qitədə*
*oxunur türk nəğməsi.*
*Bu nəğmənin xalında*
*xoşdur həyat, yaşamaq,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Metesi, Atillası,*
*Teymuru, Çingizi var,*
*Tarixin yaddaşında*
*türk möhürü, izi var,*
*Türk ədalət sevəndir -*
*öz hökmü, öz sözü var.*
*Atatürk, Heydər olub*
*yolunda işıq, mayak,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Türk qoymaz ki, kimsənin*
*haqqı yeyilə, itə,*
*Haqsızlıq cayır kimi*
*arta, hər yerdə bitə.*
*Tanrısın sevəndi türk,*
*səcdə eyləməz bütə.*
*Vüqarda, əzəmətdə*
*türk özü də dağdı, dağ,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Türk uyğur, qaraqalpaq,*
*qaqauz, türkmən, qazax...*
*Milyon-milyon türk oğlu*
*güvənibdir haqqa bax,*
*Adı ayrı olsa da,*
*soyları birdir ancaq,*
*Bir kökdən qidalanır,*
*güc alır neçə budaq,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

*Dünya türkə qənim yox,*
*dost olsa, qardaş olsa,*
*Ağrı-acılarına,*
*dərdinə sirdaş olsa,*
*İnsanların qəlbinə*
*sevgi, məhəbbət dolsa,*
*Türk bütün insanlığa*
*açar xoş üzlə qucaq,*
*Dünyanı dərddən, qandan*
*ancaq türk qurtaracaq!*

## İki maska

Bir xəstəm mənə iki maska gətirdi.
Həkim dostumun dediklərindən.

*Elə bll dünyanı verdilər mənə*
*Dünyanın bu çətin, ağır anında.*
*İşə bax, özünü düşünmür xəstə,*
*Xəstənin fikri də həkim yanında.*

*Kövrəldim xəstəmin bu qayğısından*
*Bir anda buludtək doldu gözlərim.*
*Bilmədim nə deyim, nə söyləyim mən,*
*Qırıldı muncuqtək sanki sözlərim.*

*Həkimə dikilib dünyanın gözü.*
*Dünya həkimlərin divanəsidir.*
*Həkimlər özünü unudub tamam*
*Ancaq xəstələrin pərvanəsidir.*

*Çarpışır ölümlə həyat dünyada,*
*Asılıb bir incə tükdən dünyamız.*
*Şəfqətli əllərlə qurtaracaqdır*
*İnanın bu ağır yükdən dünyamız.*

*Həkim xəstəsinə yandığı qədər*
*Xəstə də həkimin düşünür bu gün.*
*Biz qalib çıxarıq bu sınaqdan da*
*Biri birimizi sevdiyimizçün.*

## Nağıl

*Bu neçə atəşdi yanır içimdə,*
*Bu oddan alışır, yanır içim də.*
*Yanğıma səpməyə su tapılmayır,*
*Sonuncu nəğməsin son nəfəsində*
*Son dəfə oxuyan Qu tapılmayır.*
*Şimşəklər lal olub, susub, kiriyib,*
*Bəlkə bir şimşəktək çaxıb gedəsən,*
*Bəsdi bu dünyanın ağrısı, dərdi,*
*Bəlkə bu dünyadan çıxıb gedəsən!*
*Gedəsən geçənin sükutu kimi,*
*Göylərin yağışsız buludu kimi.*
*Gedəsən, dolasan gözlərdən uzaq,*
*Gözünü buludtək sıxıb gedəsən.*
*Baxasan dünyaya sonuncu kərə,*
*Sonra öz yükünü yığıb gedəsən.*
*Yer səni axtara -tapa bilməyə,*
*Göy səni axtara-tapa bilməyə.*
*Bir qaya olasan, sıldırım qaya,*
*Kimsə bir də səni çapa bilməyə,*
*Kimsə bir də səni tapa bilməyə!*
*Gedəsən, nə qəbrin, nə izin qala,*
*Qala beş-on kəlmə xoş sözün qala.*
*Torpağa əkələr sözünü sənin,*
*Durub gözləyələr özünü sənin.*
*Görəsən yoluna bir baxan varmı,*
*Hardasa səninçün darıxan varmı!*
*Gözünün kökləri saralanacan,*
*Səbrlər tükənib daralanacan*
*Bu Yer kürəsində yoxa çıxasan!*
*Qoyub əllərini qaşının üstə*
*Bir də öz yoluna özün baxasan.*
*Deyələr nə vaxtsa qayıdacaqdır,*
*Qayıdıb dağ-daşı oyadacaqdır.*
*Sənin yoxluğuna bu yer üzündə*
*Nə kimsə darıxa, nə gözü dola.*
*Dünyaya gəlişin bir nağıl idi,*
*Dünyadan gediş də bir nağıl ola!*

Ədalət.- 2020.- 13 may. S. 7.